| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU 305, Tarix təliminin müasir innovativ texnologiyaları, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | doktorant Kəmalə Mustafayeva |
| | **E-mail:** | kmustafayeva@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Neftçilər korpusu: |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU 101 Təhsilə giriş | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>Mühazirə mətnləri<br>1. M.M. Əmirov Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2014, 678 səh.<br>2. F. Əliyeva, Ü. Məmmədova Müasir təlim texnologiyaları, Bakı, 2014, 195 səh.<br>3. Akif Nəzərov. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri) dərs vəsaiti. Bakı, 2012. 105 səh.<br>**Əlavə:**<br>4. Musayev D. “Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları”. Monoqrafiya. Bakı, ADPU-nun nəşriyyatı. 2022, 228 səh.<br>5. Bəhrəmova S. “Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası”. Bakı,”OPTİMİST”MMC-2024, 224 səh. | |
| **Kursun təsviri** | Fənnin əsas məzmun xəttini tarix təlimində beyin həmləsi, müzakirələr, rollu oyunlar, təqdimatlar, tədqiqatın aparılması üsulları, məntiqi, yaradıcı və tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlardan istifadə, interaktiv dərslərin formalaşdırılması, quruluşu, öyrədici və psixoloji mühitin yaradılması, iş formaları, interaktiv təlimin həyata keçirilməsində istifadə olunan təşkilati metodlar, tarix təlimində problem situasiyadan, evristik söhbət metodundan, həmçinin, tarix təlimində multimedia qurğularından istifadə təşkil edir. Fənnin tədrisində interaktiv dərslərin mərhələləri və quruluşuna daha dərindən yanaşılacaq, yeni təlim texnologiyaları ilə ənənəvi təlim texnologiyalarının müqayisəli təhlili aparılacaqdır. Həmçinin, yeni innovativ təlim texnologiyaları və İKT-dən istifadənin təlim-tərbiyə təsiri məsələləri üzərində çalışılacaqdır. | |
| **Kursun** | Tarix fənninin müasir innovativ texnologiyaları fənnində pedaqoji innovasiyaların | |

<table>
<tr><td>məqsədləri</td><td colspan="3">mahiyyəti və mexanizmləri, eləcə də təlim texnologiyalarının tədqiqi və təlim-tərbiyəvi əhəmiyyəti məsələlərinin tədrisi nəzərdə tutulur. Yeni təlim texnologiyalarının təsnifatı, interaktiv təlimin metod və texnikaları, innovativ metodların şəxsiyyətyönümlü, şagirdyönümlü və nəticəyönümlülü cəhətlərinin araşdırılması fənnin əsas məqsədidir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin tədrisi prosesində tələbələr:<br>• Tarix təlimində innovativ texnologiyaların nəzəri məsələlərini mənimsəyir;<br>• İnnovativ texnologiyaların tədqiqi səviyyəsini, mahiyyətini, məzmununu və həmin texnologiyaların metod və texnikalarının səciyyəvi cəhətlərini müəyyənləşdirir;<br>• İnteraktiv iş formalarından səmərəli istifadə qabiliyyətinə sahib olur;<br>• İKT-dən peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etməyi, ümumiləşdirməyi və tətbiq etməyi bacarır;<br>• İnnovativ təlim mühitini yaratmaq, onu demokratik şəraitdə idarə etməyi, müəllim-şagird əməkdaşlığı əsasında təhsilalanları istiqamətləndirməyi, onların müstəqil olaraq öyrənmə prosesinə qoşulmasını təmin etməyi bacarır;<br>• Müxtəlif tarixi mənbələr və materiallarından zəruri məlumatları seçərək arqumentləşdirməyi bacarır;</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Prezentasiya</td><td>Semestr ərzində</td><td>10</td></tr>
<tr><td>Qrup işi</td><td>May ayının ərzində</td><td>10</td></tr>
<tr><td>Quiz</td><td>Aprel ayının ilk həftəsi<br>May ayının üçüncü həftəsi</td><td>20</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel ayı</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun ayı</td><td>30</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Prezentasiya<br>Tələbə öz istəyi ilə müəllim tərəfindən sillabusda qeyd edilən və ilk dərs günündən etibarən təqdim olunan mövzulardan birini seçməklə prezentasiya hazırlamalıdır. Prezentasiya hazırlanarkən tələbələr ədəbiyyat və mənbələr, o cümlədən elmi araşdırma və əsasa malik linklərdən istifadə etməlidir. Verilən prezentasiya mövzuları məktəb dərsliklərində mövzular üzərində qurularaq hazırlanmalıdır. Hər bir prezentasiyanın hazırlanmasında ən azı 3 ədəbiyyatdan istifadə edilməlidir. Prezentasiya minimum 10, maksimum 20 slaydan ibarət ola bilər. Slaydda yazılı hissələrdən daha çox illüstrasiya, cədvəl, şəkil və digər vizuallıqdan istifadə edilməlidir. Prezentasiyalar ikinci dərsdən etibarən son dərsə kimi təqdim oluna bilər. Müəllim ilk dərsdə prezentasiya təqdim ediləcək günləri tələbələrlə razılaşdıraraq qeyd edəcək və MS Teams qrupunda da bu haqda</td></tr>
</table>

paylaşacaqdır. Prezentasiya təqdimatı dərs zamanı aparılacaqdır. Bu zaman prezentasiya mövzusuna uyğun müzakirə, təhlilə üstünlük veriləcək və digər tələbələrin də sualları ilə aydınlaşdırma aparılacaqdır.

Hər bir tələbə 10-15 dəqiqə ərzində prezentasiyasını təqdim etməli və daha sonra digər tələbə yoldaşları ilə birlikdə müzakirə və təhlillər aparılmalıdır. Tələbələrin öz istəyi ilə prezentasiyaya hazır olduqları günə maksimum 4 tələbə üçün vaxt ayrılır.

**Qeyd:** Prezentasiya Power Point və ya başqa platformalardan istifadə etməklə hazırlanmalıdır. Tələbə öz təqdimatını təqdim etməzdən ən azı 2 gün öncə müəllimin elektron poçt ünvanına göndərməli və ya MS Teams platformasında fənn üçün açılan qrupda öz adına qovluq açıb yerləşdirməlidir. **Burada məqsəd gələcəyin müəllimi olan tələbənin təqdimat bacarığının inkişaf etdirilməsidir. Plagiat və köçürmə olan işlər qəbul edilməyəcəkdir!**

**Qrup işi**

Qrup işləri müxtəlif xarici ölkələrdə tədris prosesində tətbiq olunan innovativ texnologiyalar və ya ölkə məktəblərində müasir yeni texnologiyaların qrup şəklində araşdırılması üzərində qurulacaqdır. Qruplara bölünmə ilk dərs günündə aparılacaqdır. Qruplar digər qruplarda təkrarlanmayan kollektiv işlərini sərbəst şəkildə seçmək hüququna sahibdirlər. Qrup işləri kiçik tədqiqat və araşdırma xarakterində həm yazılı, həm də şifahi şəkildə təqdim olunmalıdır. Tələbələr istifadə etdikləri mənbələri mütləq qeyd etməlidirlər. Qrup işlərinin təqdimatı may ərzində aparılacaqdır. Burada tələbələr sərbəst seçim əsasında may ayında istənilən dərs günündə mövzularını təqdimat edə bilərlər.

**Quiz**

Birinci yoxlama aprel ayının ilk həftəsi aralıq imtahanından öncə (10 bal), ikincisi isə mayın üçüncü həftəsi final imtahanından öncə (10 bal) nəzərdə tutulur. Hər iki yoxlamada 5 ballıq 2 açıq sual veriləcəkdir. Hər bir yoxlamaya 20-30 dəqiqə vaxt ayrılır. Köçürmə halında yoxlama işi ləğv edilir. **Yoxlamanın məqsədi keçilən mövzular üzrə biliklərin möhkəmləndirilməsi, tələbələrin imtahanda açıq sualların cavablandırılmasına hazırlıqlı olmasına kömək etməkdir. Yoxlamada üzrsüz səbəbdən iştirak etməyən tələbə üçün yenidən yoxlama keçirilmir.**

**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) yoxlama işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər.

**Davamiyyət**

Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır. Bu fənn çərçivəsində davamiyyətə görə qiymətləndirmə aparılır.

**İmtahanlar**

Aralıq imtahanı fevral-mart aylarında tədris olunan mövzular üzrə, final imtahanı aprel və may ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

**Fənni bitirmək qaydası**

Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**İmtahan qaydalarının pozuntuları**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Tələbənin davranış qaydaları**

Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| **1.** | | Sillabusla tanışlıq. Tarix təliminin müasir innovativ texnologiyaları fənninə giriş | Sillabus və mühazirə mətni |
| **2.** | | Pedaqoji innovasiyalar. Müasir təlim innovasiyalarının nəzəri məsələləri | 3. II Mövzu; səh 10-16<br>VII Mövzu; səh 45-49 |
| **3.** | | Müəllimin fasilitasiya bacarığı və dərsə hazırlaşması | 1. XIX Bölmə; səh 390-400 |
| **4.** | | Tarix təlimində rollu oyunlar və təqdimat metodlarından istifadə | 1. XXII Bölmə; səh 470-477 |
| **5.** | | Tədqiqatın aparılması metodlarından istifadə | 1. XXIII Bölmə; səh 478-491 |
| **6.** | | **Novruz Bayramı** | |
| **7.** | | **Novruz Bayramı** | |
| **8.** | | Məntiqi və tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlardan istifadə | 1. XXIV Bölmə; səh 493-510 |
| | | **Aralıq imtahanı** | |
| **9.** | | Yaradıcılıq proseslərinin inkişafına yönəldilmiş metodlardan istifadə | 1. XXIV Bölmə; səh 510-517 |
| **10.** | | Problem situasiyalı təlim texnologiyası | 1. XXIV Bölmə; səh 547-551 |
| **11.** | | Tarixin innovativ metodlarla tədrisində istifadə olunan təşkilati üsullar | 1. XXV Bölmə; səh 517-525 |
| **12.** | | Tarixin tədrisində informasiya, kommunikasiya texnologiyasından istifadə | Mühazirə mətni |
| **13.** | | Ümumtəhsil məktəblərində tarixin tədrisində multimedia texnologiyasından istifadə | 1. XXVI Bölmə; səh 525-544 |
| **14.** | | Tarix təlimində oyun texnologiyalarından istifadə<br>Modul təlim texnologiyası | 1. XXVI Bölmə; səh 552-556<br>1. XXVI Bölmə; səh 545- |

| | | | |
|---|---|---|---|
| | | | 547 |
| **15.** | | Tam orta təhsil səviyyəsində tarixin məsafədən təlimi | 1. XXVI Bölmə; səh 557-568 |
| **Final imtahanı** | | | |

**Prezentasiya mövzuları**

**Tarix dərslərində:**

1. Auksion texnikasından istifadə
2. Klaster texnikasından istifadə
3. Anlayışın çıxarılması texnikasından istifadə
4. Söz assosiasiyaları texnikasından istifadə
5. Diskussiya texnikasından istifadə
6. Çarpaz müzakirə texnikasından istifadə
7. Müzakirə xəritələri texnikasından istifadə
8. Klassik dialoq texnikasından istifadə
9. Akvarium texnikasından istifadə
10. Açıq iclas texnikasından istifadə
11. Dairəvi müzakirə texnikasından istifadə
12. Müzakirələr metodundan istifadə
13. Rollu oyunlar metodundan istifadə
14. Modelləşdirmə texnikasından istifadə
15. İşgüzar oyunlar texnikasından istifadə
16. Səhnələşdirmə texnikasından istifadə
17. Təqdimat metodundan istifadə
18. Tarix təlimində İKT-dən istifadə
19. Karusel texnikasından istifadə
20. Söz assosiasiyası texnikasından istifadə
21. Təşkilati üsullara əsaslanan texnikalardan istifadə (Ziqzaq və mozaika, Qruplara bölünmə texnikaları, Fəallaşdırma texnikalarından hər hansı biri seçilməlidir.)
22. Yaradıcılıq proseslərinin inkişafına yönəldilmiş metodlardan istifadə
23. Məntiqi və tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlardan istifadə
24. Tarix dərslərində modul təlim texnologiyasından istifadə
25. Tarixin tədrisində multimedia texnologiyasından istifadə

**Qeyd: 2 tələbə eyni mövzunu seçə bilər. Lakin məktəb tarix dərsliklərindən seçəcəkləri və tətbiq edəcəkləri mövzu fərqli olmalıdır.**